

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 98 (21.250)

*19 may 2015-ci il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Mayın 18-də Bakıda "Mədəniyyəti ortaq təhlükəsizlik naminə paylaşaq" mövzusunda III Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun rəsmi açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva açılış mərasimində iştirak ediblər.

Dövlətimizin başçısı mərasimdə nitq söyləyib.

* * *

Mayın 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva İslam Əməkdaşlıq Təşkilatının Baş katibi İyad bin Amin Mədəni ilə görüşüblər.

* * *

Mayın 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva İSESCO-nun Baş direktoru Əbdüləziz bin Osman əl-Tuveycri ilə görüşüblər.

* * *

Mayın 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ABŞ-da yerləşən Etnik Anlaşma Fondunun sədri Rabbi Mark Şnayeri qəbul edib.




## Kənd təsərrüfatının inkişaf perspektivlərinə həsr olunmuş beynəlxalq konfrans



**Naxçıvan Dövlət Universitetində (NDU) "Kənd təsərrüfatının inkişafı: reallıqlar və perspektivlər" mövzusunda beynəlxalq konfrans keçirilib.**

Türkiyə Cümhuriyyətindən Ərzurum Atatürk, Qars Qafqaz və İqdır universitetlərinin, Gürcüstandan Şota Rustaveli adına Batumi Dövlət Universitetinin təmsil olunduğu beynəlxalq konfransı giriş sözü ilə Naxçıvan Dövlət Universitetinin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov açıb. Rektor müasir dövrdə Azərbaycanda aparılan aqrar islahatların uğurlarından, Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatının inkişafına göstərilən dövlət qayğısından danışıb. Qeyd olunub ki, ölkəmizdə qəbul edilmiş dövlət proqramlarının icrası və kənd təsərrüfatı infrastrukturunun yaxşılaşdırılması hesabına muxtar respublikada əkinçilik, heyvandarlıq, quşçuluq sahələrində əhəmiyyətli nailiyyətlər əldə edilib. İftixarla demək olar ki, muxtar respublika istehsal etdiyi kənd təsərrüfatı məhsullarının keyfiyyətinə görə istənilən ölkə ilə rəqabətə girə bilər. Rektor kənd təsərrüfatı məhsullarının ərzaq təhlükəsizliyi, ətraf mühitin mühafizəsi, ekoloji cəhətdən təmiz məhsulların əldə olunması və satışı istiqamətində qarşıda duran vəzifələrdən də söz açaraq keçirilən beynəlxalq konfransın mövcud problemlərə elmi ictimaiyyətin münasibəti baxımından mühüm əhəmiyyət kəsb etdiyini deyib.

Sonra AMEA-nın müxbir üzvü Saleh Məhərrəmovun "Naxçıvan Muxtar Respublikasında helmintozların qoyunçuluğa vurduğu iqtisadi zərər və onun qarşısının alınması yolları" ilə bağlı elmi məruzəsi dinlənilib.

Naxçıvan Muxtar Respublikasının Kənd Təsərrüfatı naziri Elşad Əliyev məruzə edərək regionda kənd təsərrüfatının müxtəlif sahələrinin sürətli inkişafı üçün yaradılan əlverişli şəraitdən, əldə olunan nəticələrdən danışıb. Qeyd olunub ki, son illərdə muxtar respublikada ümumi sahəsi 105 min kvadratmetrdən çox olan istixana kompleksləri, ümumi tutumu 12 min 250 ton olan soyuducu anbarlar, tutumu 27 min ton olan uzunmüddətli və 43 min ton olan qısamüddətli taxıl ehtiyatı anbarları, 17 taxıl emalı müəssisəsi, 222 heyvandarlıq, 64 quşçuluq, 94 arıçılıq, 12 balıqçılıq, 68 bağçılıq və üzümçülük təsərrüfatları yaradılıb. Aparılan məqsədyönlü tədbirlər nəticəsində 2014-cü ildə muxtar respublika üzrə 103 min ton taxıl, 41 min 406 ton kartof, 66 min 731 ton tərəvəz, 34 min 339 ton bostan məhsulları, 36 min 196 ton meyvə, 14 min 395 ton üzüm istehsal edilib. Bütövlükdə, 2014-cü ildə kənd təsərrüfatının ümumi məhsulunun dəyəri 355 milyon 157 min manat təşkil edib ki, bu da əvvəlki illə müqayisədə 6,1 faiz çoxdur. Muxtar respublikada heyvandarlığın inkişaf etdirilməsinə, mal-qaranın cins tərkibinin yaxşılaşdırılmasına, heyvandarlıq məhsullarının intensiv artımına da nail olunub. Belə ki, 1 aprel 2015-ci il tarixə olan məlumata görə, muxtar respublika üzrə iribuynuzlu malların baş sayı 114 min 137, xırdabuynuzlu heyvanların baş sayı isə 701 min olub. Keçən ilin müvafiq dövrü ilə müqayisədə 1550 baş iribuynuzlu mal, 12 min 792 baş xırdabuynuzlu heyvan artımı müşahidə edilməkdədir.

Konfransın plenar iclasında AMEA Mikrobiologiya İnstitutunun direktoru, akademik Məmməd Salmanovun "Azərbaycanın Xəzər sektorunun üzvi maddələr balansının müasir ekoloji vəziyyəti", Naxçıvan Muxtar Respublikası Dövlət Baytarlıq Xidmətinin rəisi Əbil Əbilovun "Naxçıvanda baytarlığın müasir vəziyyəti" mövzularında məruzələri dinlənilib.

Konfrans "Heyvandarlıq", "Bitkiçilik və kənd təsərrüfatının iqtisadiyyatı", "Ekologiya və ətraf mühit", "Meyvəçilik" üzrə bölmə iclasları ilə işini davam etdirib.

Sonra konfrans iştirakçılarına sertifikatlar təqdim edilib; qonaqlar universitet kampusunu gəzib, müasir texnologiyalarla təchiz olunmuş universitet televiziyasında və digər struktur bölmələrdə olublar. Növbəti gün konfrans iştirakçıları muxtar respublikanın heyvandarlıq komplekslərində və istixanalarda olublar. Təsərrüfatlarla tanışlıq zamanı qonaqlar ət və süd məhsulları istehsalı, heyvan xəstəliklərinə qarşı epizootik tədbirlərin aparılması, əkin sahələrində suvarılma və becərmə işləri ilə də maraqlanıblar.

**Mehriban SULTAN**

## Vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı ilə bağlı seminarlara başlanılıb

*Dünən Ordubad rayonunda Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi tərəfindən vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı ilə bağlı seminar keçirilib.*

Seminarda rayonun şəhər, qəsəbə və kəndlərinin inzibati ərazi dairəsi üzrə nümayəndələri iştirak ediblər.

Tədbiri giriş sözü ilə Ordubad Rayon İcra Hakimiyyətinin başçısı Elşad Məmmədov açıb.

Seminarda Naxçıvan Muxtar Respublikasının Ədliyyə naziri, II dərəcəli dövlət ədliyyə müşaviri Suliddin Əliyev çıxış edərək bildirib ki, hazırda Ordubad rayonunun inzibati ərazi dairəsi üzrə nümayəndələri tərəfindən doğumun, nikahın, ölümün qeydiyyatı və bir sıra notariat hərəkətləri aparılır ki, bu əməliyyatlar 29 icra nümayəndəliyi tərəfindən rəsmiləşdirilir. Rayonun inzibati ərazi dairəsi üzrə nümayəndəlikləri tərəfindən vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı vəziyyətinin öyrənilməsi məqsədilə 2009-2014-cü illər ərzində rayon İcra Hakimiyyəti ilə birlikdə 12 dəfə yoxlama keçirilib və aşkar olunan nöqsanların aradan qaldırılması üçün onlara hərtərəfli metodik köməklik göstərilib. Lakin bütün maarifləndirmə tədbirləri və yoxlamalara baxmayaraq, adıçəkilən qurumların vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı sahəsindəki fəaliyyətlərində nöqsanlar qalmaqdadır. 2014-cü ildə və 2015-ci ilin I rübü ərzində keçirilən yoxlamalar zamanı Gənzə, Yuxarı Əndəmic və Düylün kəndlərinin inzibati ərazi dairəsi üzrə nümayəndəliklərinin işində nöqsanlar aşkara çıxarılıb.



Bildirilib ki, hər bir inzibati ərazi dairəsi üzrə nümayəndə fəaliyyətini qanunvericiliyə uyğun təşkil etməli, "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikası Qanununun, Azərbaycan Respublikasının Ailə Məcəlləsinin, kargüzarlıq qaydalarını müəyyən edən təlimatın tələblərinə əməl etməli və vətəndaşlıq vəziyyəti aktları qeydə alınmasına görə dövlət rüsumu ödənildikdən sonra müvafiq əməliyyatı rəsmiləşdirməlidir.

Tədbirdə vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı ilə bağlı məsələlər barədə ətraflı bəhs edilib, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

Tədbirə Ordubad Rayon İcra Hakimiyyətinin başçısı Elşad Məmmədov yekun vurub.

## Naxçıvan şəhərində tikinti-quruculuq işləri genişləndirilib

***Hər il olduğu kimi, 2015-ci ildə də Naxçıvan şəhərində tikinti-quruculuq tədbirləri geniş vüsət alıb. Müxtəlifprofilli quruculuq obyektləri sırasında mədəniyyət müəssisələrinin tikintisi və ya əsaslı şəkildə yenidən qurulması da yer alıb. Belə tikinti obyektlərindən biri də Naxçıvan şəhərinin Atatürk küçəsində yerləşən 2 nömrəli Uşaq musiqi məktəbi üçün binadır.***



Zirzəmi ilə birlikdə 4 mərtəbədən ibarət olan binada tikinti işlərinə ötən ilin mart ayından başlanılıb. Ötən müddət ərzində burada işlərin böyük bir qismi tamamlanıb, binanın dam örtüyü vurulub, pəncərələr salınıb, fasad hissə üzlük daşla müasir üslubda üzlənib. Hazırda daxildə döşəmə vurulur, divarlar boyanır, obyektin ətrafında isə abadlıq işləri aparılır.

Qeyd edək ki, Naxçıvan Şəhər Abadlıq və Təmir-Tikinti İdarəsinin inşaatçıları tərəfindən tikilən binanın zirzəmi hissəsində böyük zal, kitabxana, qazanxana, anbar və sinif otaqları fəaliyyət göstərəcək. Binanın digər mərtəbələrində isə direktor otağı, nəzəriyyə sinfi, 2 musiqi ədəbiyyatı kabinəsi, xor sinfi, böyük konsert zalı və 30-dan çox sinif otağı yerləşəcək.

* * *



Son illərdə muxtar respublikamızda zabit ailələrinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması da diqqət mərkəzində saxlanılır. Bu istiqamətdə həyata keçirilən tədbirlər dövlətimizin hərbi qulluqçulara qayğısı kimi dəyərləndirilir. Növbəti belə qayğının nümunəsini isə Naxçıvan şəhərinin Babək məhəlləsində Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin zabitləri üçün yeni yataqxana binasının tikintisində görmək mümkündür.

"Gəmiqaya" Məhdud Məsuliyyətli Cəmiyyətinin inşaatçıları tərəfindən obyektin tikintisinə 2014-cü ilin iyul ayında başlanılıb. Bina zirzəmi ilə birlikdə 7 mərtəbədən ibarətdir. İkigirişli, 48 mənzilli yataqxana binasının zirzəmi hissəsində bərbər, anbar, camaşırxana və mağaza fəaliyyət göstərəcək. Digər mərtəbələrdə isə otaqlarla bərabər, foye, salon, mətbəx və sair yerləşəcək, hər blokda lift quraşdırılacaq. Ötən müddət ərzində binada hörgü işləri yekunlaşdırılıb, sonuncu mərtəbə istisna olmaqla, pəncərələr salınıb, fasad hissə suvanıb. Hazırda dam örtüyünün vurulmasına başlanılıb, həmçinin daxildə suvaq işləri aparılır. İnşaatçılar obyektdə işlərin keyfiyyətlə və vaxtında tamamlanması üçün səylə çalışırlar.

Yeni yataqxana binası Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyində xidmət edən zabitlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılmasına öz töhfəsini verəcəkdir.

**Xəbərlər şöbəsi**

***İstər əhali, istərsə də ərazi baxımından muxtar respublikamızın ən kiçik rayonu olan Sədərəyi digər regionlardan, bölgələrdən fərqləndirən cəhətlər, xüsusiyyətlər az deyil. Bunlar, ilk növbədə, onun yerləşdiyi coğrafi mövqe ilə bağlıdır. Əvvəla, Sədərək təkcə Naxçıvanın yox, bütöv məmləkətimizin ən ucqarda və sərhəddə yerləşən torpaqlarından biridir: mənfur ermənilərlə həmsərhəddir.***



# Sədərəyin bugünkü inkişafı həqiqətə çevrilmiş möcüzədir

Digər tərəfdən isə dost və qardaş ölkə olan Türkiyə ilə cəmi 11 kilometrlik sərhəd xətti də bu ərazidə (Araz çayı boyunca) yerləşir. Bax bu mənada Sədərək rəmzi bir qapıdır. Bu qeyrət qalası düşmənlərimiz qarşısında qurulub, onları diz çökdürmək, torpaqlarımıza buraxmamaq üçündür. 2002-ci ilin avqust ayında Sədərək əhalisi ilə görüşündə ümummilli liderimiz Heydər Əliyev deyib: ***"Sədərək rayonunun Naxçıvan Muxtar Respublikasında, o cümlədən Azərbaycanda xüsusi yeri var. Böyük bir kənd olmuş və rayon statusu almış Sədərək həmişə bizim, Azərbaycanın ən kənar yerində, sərhəddə yerləşərək Azərbaycan torpaqlarını qorumuş, saxlamış və mərdlik nümunələri göstərmişdir".***

Sədərəklilər keçən əsrin 80-ci illərinin sonu və 90-cı illərinin əvvəllərində düşmənə qarşı göstərdikləri qəhrəmanlıqları ilə dastan yazdılar. "Şərq qapısı" qəzetinin 1994-cü il 5 fevral tarixli nömrəsində dərc olunan "Sədərək qorunur, yaşayır!" adlı məqalədən oxuyuruq ki, sədərəklilərin şücaəti, qəhrəmanlığı dillərdən düşməyib, sərhədlər aşıb. Belə şücaəti və qəhrəmanlığı ancaq öz yurduna, öz torpağına, öz dövlətinə bağlı olan insanlar göstərə bilərlər.

Bəli, Sədərək belə insanların hesabına qorundu. Bu gün də qorunur. Özü də yüksək səviyyədə – həm torpaq təəssübünü, yurd sevgisini hər şeydən üstün tutan sədərəklilərin, burada xidməti borcunu yerinə yetirən, sərhəddə ayıq-sayıq dayanan əsgərlərimizin hesabına, həm də dövlətimizin böyük qayğısı gücünə.

Sədərəkdə torpaq həm qorunur, həm də becərilir. Yurda bağlılığı, onu daha gözəl görmək arzularının çin olmasını, muxtar respublika sakinlərinin yaxşı yaşamasının prioritet vəzifəyə çevrilməsinin nümunələrini Sədərəkdə daha dolğunluqla görmək olar. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Sədərək rayonunun sosial-iqtisadi inkişafı haqqında" 15 mart 2000-ci il tarixli Sərəncamı Vətənə olan sevgi, istək, saf amal və pak əməlin bariz nümunəsidir. Bu sərəncamdan sonra çox keçmədi ki, Sədərək hünər, zəhmət, quruculuq meydanına çevrildi. Qoynunda düşmən mərmilərindən şırımlar açılan bu yurd yerinin sinəsini quruculuq töhfələri bəzədi. İnsanların sabaha olan inamı yüksəldi. Sərəncamın icrası istiqamətində görülən işlər, həyata keçirilən digər məqsədyönlü tədbirlər sərhəd qalasını müasir rayona çevirdi.

İllər öncəki Sədərək və bugünkü Sədərək. Geridə qoyduğumuz illər Sədərəyə nə bəxş etdi? Bu gün necə yaşayır sərhəd rayonumuz? İnsanları gün-güzəranlarını necə qurublar? Statistik rəqəmlər rayonun sosial-iqtisadi inkişafının mənzərəsini açıq-aydın göstərir. Amma biz bu dəfə necə yaşadıqlarını sədərəklilərin dilindən eşitmək istədik. Beləliklə, rayon sakinləri ilə görüşmək, onlarla həmsöhbət olmaq üçün rayona üz tutmaq qərarına gəldik.

...Yol alırıq Sədərəyə. Rahat, geniş magistral yol bizi bu gün gözəlliklər məskəninə çevrilmiş alınmaz qalaya aparır. Az qala hər addımda hava da dəyişir, təbiət də, mənzərələr də. Bir azdan isə Zəngəzur silsiləsinin Dərələyəz sıra dağları ilə üz-üzə dayanırsan. Sədərək dağlara sığınıb. Elə bil əl uzatsan, çatar. Sədərəyə çatana yaxın sol tərəfdəki Ağrı dağına baxmadan keçmək olmur. Sədərəyin ağrılı-acılı, çətin və qanlı-qadalı günlərindəki mərdanəliyinə şahidlik edib bu dağ. Digər şahid olan məkansa buradakı Şəhidlər xiyabanıdır. Sədərəklilərin müqəddəs ünvan saydıqları bu məkanı ziyarət edərkən ürəyimdən keçən fikirlərlə, yəqin ki, oxucularımız da razılaşar: Allah sədərəklilərə doğma ocağa, ata-baba yurduna hədsiz məhəbbət hissi, çətinliklərə sinə gərmək üçün qeyri-adi dözüm, dəyanət verib.

Budur, yağı düşmənlə üz-üzə dayanan, bir vaxt güllələr, bu gün isə güllər açılan, gülzarlığa çevrilən Sədərək rayonu. İndi Sədərəyin ən böyük silahı son illər burada aparılan çox böyük quruculuq və abadlıq işləridir. Həm qəsəbəsində, həm də kəndlərində yollar genişləndirilib, qara örtük salınıb, yaşıllıq zolaqları yaradılıb. Müxtəlif təşkilatlar üçün



yeni binalar inşa olunub.

Rayonda ən çox diqqətçəkən burada başqa bölgələrdən gəlib yaşayan gənc ailələrimizdir. Novruzovlar ailəsi 7 ildir, Sədərəkdə yaşayır. Ailə üzvlərindən Natella Novruzova ilə həmsöhbət oluram. Onun dediklərindən:

– Heydərabad qəsəbə tam orta məktəbində ibtidai sinif müəllimi işləyirəm. Həyat yoldaşım uşaq bağçasında gözətçidir. Burada özümüzü sədərəkli kimi hiss edirik. Sədərəyə gəlməzdən əvvəl fikirləşirdim ki, mən sərhəd bölgəsində, həm də düşmənlə üz-üzə olan bir yerdə necə yaşayacağam? Övladlarımı necə böyüdəcəyəm? Səmimi etiraf edim ki, bura gəldikdən sonra burada hər hansı bir çətinliklə rastlaşmadıq. Əksinə, rahat şərait qurduq özümüzə, evlə təmin olunduq. Qürur duyuruq ki, sərhəd bölgəsində fəaliyyət göstəririk. Mən burdan gənclərə səslənirəm: belə bölgələrimiz biz gənclərə əmanətdir.

Yeri gəlmişkən deyək ki, Sədərəkdə gənclər və gənc ailələr çoxluq təşkil edir. Həmin gənclərdən birinin ailəsində olduq. Ailə başçısı Əkbər Kazımov hərbçidir. Bir neçə ildir ki, burada qulluq edir. O, düşmən mövqelərini göstərərək deyir:

– Bir baxın, qəsəbədəki binaların hər birindən düşmən mövqeləri açıq-aydın görünür. Ara-sıra atəş səslərinin eşidildiyi, ağır artilleriyanın hədəfi olmaq istisna edilməyən bu rayonda yaşamaq, həqiqətən də, böyük cəsarət və dövlətə, orduya inam tələb edir. Bu da sədərəklilərdə var. Ona görə də onlar əkir-becərir, qurub-yaradırlar, necə deyərlər, öz qaynar həyatlarını yaşayırlar.

Yol kənarında dayanmış qəsəbə sakini Namaz dayı ilə həmsöhbət oluram. Deyir ki, Sədərəyin dününinin şahidi olanlar bu gününə ürəkdən sevinirlər. Düşmən isə kədərlənir. Sərhəddən bu tərəfə boylanan ermənilər dəqiq bilirlər ki, əsrlər keçsə də, yaşadıqları ərazini bu cür cənnətə döndərə bilməyəcəklər.

Qəsəbə sakinlərinin hansı ilə söhbət etdimsə, onlar bir məqamı xüsusi vurğuladılar: yaşadıqları bu xoş günlər üçün ümummilli liderimiz Heydər Əliyevə borcludurlar. Bildirdilər ki, ulu öndərimiz Sədərəyin ən ağır illərində həm rayonu, həm də sədərəkliləri qoruyub, onlara mənəvi dayaq olub. Ulu öndərimizin sərhəd bölgəsinin ağır illərində dəfələrlə Sədərəyə gəlməsi, bölgə sakinlərinə tövsiyələrini verməsi təkcə Sədərəyi deyil, bütün Naxçıvanı erməni işğalından qoruyub. Bu gündən sabaha ümidləri olmayan sədərəklilər də dahi şəxsiyyətin ətrafında sıx birləşiblər, hər qaranlıq gecənin bir işıqlı gündüzü olacağına inanıblar. Bu gün firavan həyat tərzi məhz Heydər Əliyev ideyalarının işığı hesabına mümkün olub. Bu işıq isə indi daha da gur parlayır və heç zaman sönməyəcək. Bu işığın ziyası sərhəd bölgəsini daha xoş sabahlara aparacaqdır.

Heydərabad qəsəbəsindən Sədərək kəndinə doğru gedirik. Yol yenicə salınıb. Bu da düşmənə bir gözdağıdır. Muxtar respublikamızın sərhəd bölgələrində son illərdə düşmənə gözdağı olan çoxlu obyektlər tikilib. Kəndin girəcəyindəki parkda dincələn ağsaqqallarımızla görüşüb onların yaddaşlarını təzələməyə çalışıram. 79 yaşlı kənd ziyalısı Əsgər Axundovun sözlərini olduğu kimi qeyd dəftərçəmə yazıram:

– Çətin günlərimiz çox olub. Şükür Allaha ki, o günlər arxada qalıb. Ağ günlərə çıxmışıq. Kəndimiz günü-gündən abadlaşır, insanların yaşayış səviyyəsi yaxşılaşır. Gəzib dolaşdığımız, addımladığımız küçələrdə hər ötən gün bir yeniliklə qarşılaşırıq. Görürük ki, susuz torpaqlara su çəkilir, köhnəlmiş binalara yeni həyat verilir, quruyan qızılgüllərin budaqlarında körpə qönçələr açılır. Dünən səkidə gördüyümüz qırıq sal bu gün yerini mərmər daşa verib. Dönün bir baxın, mərmərlə döşənmiş səkinin üstündə gedib-gəlirik. Hər yer inkişaf, tərəqqi ilə nəfəs alır. Budur insanların çöhrəsindəki sevincin, gülüşün səbəbi.

Sədərək kənd 1 nömrəli tam orta məktəbin qarşısında dərsdən evə qayıdan şagirdlər diqqətimizi çəkir. Görkəmli ədibimiz Hüseyn Cavidin bir sözü yadıma düşür: "Bir millətin tərəqqi və tənəzzülünü bilmək üçün onun məktəblərini görmək kifayət edər". Müasir məktəb binasına, səliqəli məktəbli forması geyinmiş şagirdlərə baxanda adamın ürəyi dağa dönür. Bir vaxtlar övladlarının küçəyə çıxmasından qorxan sədərəklilər indi rahatdırlar. Həmin uşaqların



övladları bugünkü əmin-amanlıq şəraitində işıqlı və geniş sinif otaqlarında elm öyrənir, hərtərəfli biliyə malik gənclər kimi yetişirlər.

Bəli, bu gün Sədərək kəndi özünün qaynar həyatını yaşayır. Burada hər sahədə yüksəlişin, inkişafın, yeniliyin şahidi olursan. İlin bu vaxtında hamı iş üstündə, çöldə-bayırdadır.

Kənddə şəhər mədəniyyətinin əlamətlərini görürsən. Bu an diqqətimi "Sədərək" şadlıq sarayı çəkir. Bu şadlıq sarayı son illərdə rayon sakinlərinin istifadəsinə verilib. Əvvəllər rayonda restoran olmayıb. İlk dəfə olaraq belə bir yerin tikilib istifadəyə verilməsi sədərəkliləri ürəkdən sevindirib.

Sədərəklilərin "İşıqlı yol" adlandırdığı yol marağımızı çəkir. Bu yolun sağ tərəfində yeni tikilmiş evlərin yaxınlığında oynayan balaca uşaqların qayğısız həyat sahibi olduqlarını ilk anda hiss edirsən. Bir qədər irəlidə tikilməkdə olan evin önündə dayanırıq. Gənc ailə başçısı Ərrəhman Tağıyevlə həmsöhbət oluram. Deyir ki, yenicə ailə həyatı qurub. Torpaq sahəsi alıb, yeni ev tikir. Mənzilinin iki aya hazır olacağını bildirir. Ərrəhmanın atası Sərdar Tağıyev söhbətimizə qoşulur. Üst-başından görünür ki, əkin sahəsindən gəlir.

– Sərhəd bölgəsində yaşamaq, əkin-biçinlə məşğul olmaq çətin deyil ki? Sualımıza belə cavab verir:

– Düşmənlə sərhəddə yerləşən kəndin torpaq sahəsi boş qalmamalıdır. Onların gözü elə bu torpaqlarda deyilmi? Bu həqiqəti hər bir sədərəkli dərindən başa düşür. Biz sıravi torpaq adamları düşmənə həm də bu yolla cavab veririk. Qoy onlar görsünlər ki, bu torpaq bizim ən qiymətli sərvətimizdir və onun qədrini bilirik. Torpaqdan əldə etdiyimiz qazancla gün-güzəranımızı qururuq. Torpaq da zəhmətimizin, ona göstərdiyimiz qayğının qarşılığını birə-beş qat verir.

Çay süfrəsi arxasında sədərəkli Zakir müəllimin evində Ələkbər baba və Xanım nənəylə həmsöhbət oluram. 91 yaşlı Ələkbər Cabbarova sual verəndə kövrəlir, həyəcanlanır. 1941-1945-ci illər müharibəsində iştirak edib. Sədərək döyüşlərində yaşına baxmayaraq, cavanlarla birgə döyüşüb:

– Ömrümün bu vədəsində Sədərəyin ki xoş günlərini gördüm... Qızım, biz nəslin gördüklərini 20-25 il əvvəl danışsaydım, bugünkü firavanlıq sənə nağıl kimi görünərdi. Amma, şükürlər olsun ki, nağıl deyil, həqiqətə çevrilmiş möcüzədir Sədərəyin bugünkü büsatı. Gördüyüm o ağır günlər indi də gözlərim önündən getmir. Bəzən çıxıb gəzirəm kəndimizi. Qonşu Qaraağacı da. İrəli günlərdən birində ora qonaq getmişdim. Qaraağac da bu gün Sədərək kəndindən heç geri qalmır. 1995-ci ildə Qaraağac kəndinin də üzünə işıqlı gün doğdu. Naxçıvanın rəhbəri kəndə gəlmişdi. Əhali ilə görüşüb səmimi söhbət etdi, çətinliklərlə maraqlandı. Deyildi ki, 1991-ci ildən fəaliyyət göstərən ibtidai məktəbin binası yoxdur. Ona görə də dərslər evlərdə keçilir. Rəhbər qətiyyəti karımıza gəldi. 1996-cı ildən yeni dərs ilinə təzə tikilib istifadəyə verilmiş sinif otaqlarında başladılar müəllimlər, şagirdlər. Elə həmin vaxtdan da bu təhsil ocağı səkkizillik məktəbə çevrildi. 2004-cü ildə isə binada yenidənqurma işləri aparıldı, yeni sinif otaqları artırıldı və o dövrdən də Qaraağac məktəbi orta təhsil ocağı kimi fəaliyyətini davam etdirir.

Bizi diqqətlə dinləyən Xanım Abbasovaya üz tuturam. 1935-ci il təvəllüdlü Xanım nənə Sədərəyin ağır günlərini belə xatırlayır:

– 1988-ci ildə bu qədim yurd yeri top-tüfəng meydanına çevrildi. Nə qədər ev, kənd məktəbi, istehsal müəssisəsi dağıdıldı, kəndə külli miqdarda ziyan dəydi. Bu ziyan təkcə maddi ziyan deyildi. O günlərdə neçə-neçə insanın – körpənin, qadının, qocanın ömrünə son qoyuldu, kəndi qorumaq üçün ölkəmizin müxtəlif bölgələrindən buraya könüllülər gəldilər, sədərəklilərlə birlikdə silaha sarıldılar. Qocaları, qadın və uşaqları nisbətən təhlükəsiz yerlərdə qorudular. İgidlərimiz mənfur düşməni Sədərəyə girməyə qoymadı, sərhəd bölgəsinin qəhrəmanlıq tarixinin daha bir səhifəsi belə yazıldı. Kəndimizin qadınlarını başqa rayonlara aparmaq istədilər. Amma biz qadınlar rayonu tərk etmədik. Silahla vuruşmasaq da, düşmənlə vuruşan oğullarımıza dayaq durduq. Şükür, o günlər tez keçdi.

**Hava yavaş-yavaş qaralmaqdadır. Biz isə birgünlük təəssüratlarımızla rayondan ayrılmaqdayıq. Bu təəssüratlar içərisində yadımdan çıxmayacaq bir məqamı xüsusi vurğulamaq istəyirəm: sərhəd qalasının istər gənci və məktəblisi, istər ağsaqqal və ağbirçəyi, istərsə də vəzifəli şəxsi ilə söhbətlərdə hiss edirdim ki, onlar burada əsl sərhədçi ömrü yaşamaqlarından fəxr duyur, doğma Sədərəyin bir vaxtlar yaşadığı ağır günləri unutmur, qovuşduqları günlərin qədrini bilirlər. Sabaha inamları daha güclü olan belə insanların doğma yurd yerlərini fədakarlıqla qorumaları elə böyük Vətəni qorumaqdır. Vətən isə sərhəddən və onu qoruyan insanlardan başlayır.**

Sara ƏZİMOVA
Əli XUDİYEV

## Beynəlxalq Muzeylər Günü qeyd edilib

*18 may – Beynəlxalq Muzeylər Günü münasibətilə "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə tədbir keçirilib. Tədbiri Mədəniyyət və Turizm nazirinin müavini, sənətşünaslıq üzrə fəlsəfə doktoru Natavan Qədimova açaraq qeyd edib ki, bu günün keçirilməsində əsas məqsəd xalqlar arasında mədəniyyətlərarası əlaqələrin inkişafına dəstək olmaqdan ibarətdir.*

Nazir müavini çıxışında bildirib ki, ölkəmizdə muzeyşünaslığın inkişafı, muzey şəbəkələrinin yaradılması Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır. Xalqımızın böyük oğlu Azərbaycana rəhbərliyinin birinci dövründə respublikamızda muzeylərin, xüsusilə tarix-diyarşünaslıq, xatirə, ev-muzeylərinin və digər profilli muzeylərin yaradılması, onların fondlarının zənginləşdirilməsi məqsədilə mühüm tədbirlər həyata keçirilib. Bu illərdə Azərbaycanın 60-dək rayonunda tarix-diyarşünaslıq muzeyi yaradılıb. 1969-cu ilə qədər Azərbaycanda cəmi 29 muzey fəaliyyət göstərirdisə, ümummilli liderimizin hakimiyyəti illərində ölkəmizdə 111 müxtəlifprofilli muzey yaradılıb.

"Bu gün Azərbaycanda ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən yeni muzeylərin yaradılması istiqamətində böyük işlər həyata keçirilir", – deyən Natavan Qədimova muxtar respublikamızda muzey şəbəkələrinin genişləndirilməsindən, yeni muzeylərin istifadəyə verilməsindən söhbət açıb. Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikasında muzey şəbəkələrinin genişləndirilməsi, yeni muzeylərin yaradılması, muzey-məktəb əlaqələrinin qurulması, onlayn dərslərin təşkili mühüm əhəmiyyətə malikdir. Bütün bu tədbirlər muzeylərə marağın artmasına, tariximizin, mədəniyyətimizin hərtərəfli öyrənilməsi və təbliğ olunmasına şərait yaradıb. Muzeylərimizin müxtəlifprofilli olması, qədim diyarın bütün bölgələrini əhatə etməsi həm də turizm potensialına təsir göstərən müsbət amillərdəndir.



Yaxın gələcəkdə muxtar respublikamızda 2 yeni muzey yaradılacaqdır. Bütün bunlar bu sahədə işlərin davamlı və ardıcıl həyata keçirildiyinin göstəricisidir.

"Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksinin direktoru Elçin Əliyev çıxışında bir il bundan əvvəl istifadəyə verilmiş bu muzey kompleksinin timsalında muzeylərimizdə həyata keçirilən yeniliklərdən söhbət açıb. Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 5 iyun 2013-cü il tarixli Sərəncamına əsasən yaradılan bu muzey kompleksi Naxçıvan tarixinin təbliğ olunmasında, burada mövcud olmuş qədim şəhər mədəniyyətinin tanıdılmasında əhəmiyyətli rol oynayır. Naxçıvana gələn hər bir qonaq muzeylə maraqlanır, qədim tariximizi yaşadan bu qalanın qədim dövrlərin şahidi olduğunu öz gözləri ilə görür. Burada 5000 illik şəhər mədəniyyətimizin mövcud olduğu Naxçıvan şəhəri haqqında gələn qonaqlara, xarici ölkə vətəndaşlarına ətraflı məlumatlar verilir.

Sonra "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksinə baxış olub.

## Tanınmış bəstəkarla görüş





*Tanınmış Azərbaycan bəstəkarı, Əməkdar incəsənət xadimi, Xalq artisti, professor Faiq Sücəddinov Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində may ayının 16-da Naxçıvan Dövlət Universitetində, Bəstəkarlar Təşkilatında və bir sıra mədəniyyət müəssisələrində olmuşdur.*

Mayın 16-da Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında tanınmış bəstəkarla görüş keçirildi. Əvvəlcə konsert proqramı oldu. Konsertdə Naxçıvan Dövlət Filarmoniyası Kamera Orkestrinin, filarmoniyanın solistləri Azərbaycan Respublikasının Əməkdar artisti Gülyanaq Fərzəliyevanın, Naxçıvan Muxtar Respublikasının Əməkdar artistləri Tural Nəcəfovun, Elçin Nağıyevin, müğənnilər Yaşar Qurbanovun, Qəribə Həsənovanın ifalarında Azərbaycan və Avropa bəstəkarlarının mahnı və musiqiləri, xalq mahnıları səsləndirildi.

Sonra görkəmli bəstəkar səhnəyə dəvət edildi. Xalq artisti, professor Faiq Sücəddinov çıxış edərək muxtar respublikada həyata keçirilən quruculuq və abadlıq işlərindən danışdı, burada yaradılan gözəlliklərdən böyük zövq aldığını vurğuladı. Faiq Sücəddinov qonaqpərvərliyə, onunla görüşlərin yüksək səviyyədə təşkilinə görə dərin minnətdarlığını bildirdi. Naxçıvandakı gözəlliyin, təmizliyin onda böyük təəssürat yaratdığını qeyd edən Xalq artisti bugünkü görüşdə özünün bir neçə əsərini ifa edəcəyini dedi. Bu əsərlər içərisində Naxçıvana həsr olunmuş mahnı və musiqilər də var idi.

Bəstəkarın pianoda ifa etdiyi "Vətən balladası" tamaşaçılarda xoş ovqat yaratdı. Sonra bəstəkar Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin əziz xatirəsinə həsr olunmuş "Rekviyem" əsərini səsləndirdi. Tamaşaçını düşüncələrə qərq edən bu musiqi əsəri haqqında Xalq artisti məlumat verərək bildirdi ki, ulu öndərə həsr olunmuş bu musiqi bəstələnərkən bütün dünya ölkələrinin vətəndaşları tərəfindən başa düşülən formada nota alınmasına çalışılıb.

Bundan sonra bəstəkar Naxçıvan mövzusunda bəstələdiyi "Naxçıvan mahnısı"nı ifa etdi. Bəstəkarın ifasında Birinci Avropa Oyunlarına həsr olunmuş musiqi də maraqla qarşılandı.

Görüşdə iştirak edən gənclər üçün də mahnı səsləndirən Faiq Sücəddinovun "Düşürsən yada" və "Mən olacağam" mahnıları alqışlarla qarşılandı.

Sonda keçirilən görüşə görə bəstəkar, Xalq artisti, professor Faiq Sücəddinov bir daha dərin minnətdarlığını bildirdi.

Tədbirdə Naxçıvan Muxtar Respublikasının Mədəniyyət və Turizm naziri Sarvan İbrahimov iştirak edirdi.

**Əli RZAYEV**

*Tələbə Qəbulu üzrə Dövlət Komissiyası may ayının 17-də 2015-2016-cı tədris ili üçün Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə qəbul olunmaq istəyən əvvəlki illərin məzunları üçün II və III ixtisas qrupları üzrə qəbul imtahanı keçirib.*

## Əvvəlki illərin məzunları üçün ali məktəblərə qəbul imtahanları olub



Muxtar respublikada Naxçıvan şəhər 14 nömrəli tam orta məktəbdə keçirilən imtahanlarda 763 abituriyent iştirak edib. İmtahan başlamazdan əvvəl imtahan keçiriləcək məktəbin önündə həyəcanlı görünən abituriyentlər, onların valideynləri ilə görüşüb həmsöhbət olduq. Naxçıvan şəhərindən olan Nubar Quliyeva:

– Naxçıvan Dövlət Texniki Kollecini bitirmişəm. Təhsilimi davam etdirmək istəyirəm. Bir ilə yaxındır ki, imtahan verəcəyim qrup üzrə imtahana hazırlaşıram. Artıq səbirsizliklə gözlədiyim gün gəlib çatıb. Özümə çox güvənirəm.

Həmin gün valideynlər abituriyentlərdən daha həyəcanlı idilər. Kəngərli rayonundan olan valideyn Etiqat Abdullayevin dediklərindən:

– Qızım Mədinə bu gün imtahan verir. Ona mənəvi dəstək olmağa gəlmişik. Əvvəlki illərdə iştirak etdiyi qəbul imtahanlarında uğursuz olub. Amma buna baxmayaraq, həvəsdən düşməyib. Çox həyəcanlıyıq. Ona inanıram. Övladlarına dəstək olmaq üçün burada gözləyənlərə nümunəvi iaşə xidmətinin yaradılmasından çox razıyam və bu şəraiti yaradanlara minnətdarlığımı bildirirəm.

İmtahan başa çatdıqdan sonra imtahanların gedişinə nəzarət edən ümumi imtahan rəhbəri Rəfail Məmmədov bildirdi ki, abituriyentlərin öz bilik və bacarıqlarını göstərmək üçün ayrılan 3 saat ərzində onlar heç bir qayda pozuntusuna yol verməyərək diqqətlərini ancaq test tapşırıqlarına yönəldiblər.

İmtahandan yenicə çıxmış Naxçıvan şəhərindən olan Osman Seyidli ilə həmsöhbət oldum:

– İmtahan zalına daxil olanda bir az həyəcanlı olsam da, suallara cavab verərkən artıq bu həyəcan keçmişdi. Çünki ikinci dəfədir, qəbul imtahanında iştirak edirəm. 2009-cu ildə Naxçıvan Dövlət Universitetinə qəbul olunmuşdum. Ali təhsilimi və hərbi xidməti başa vurduqdan sonra arzuladığım ixtisasda təhsil almağa qərar verdim. Bunun üçün yaxşı hazırlaşmışam. Suallları cavablandırmağım da bir o qədər çətin olmadı. Suallara doğru cavab verdiyimə əminəm. İnanıram ki, yenidən tələbə adı qazanacağam.

İmtahan vermiş abituriyentlərin cavab kartlarının emalı başa çatdıqdan sonra nəticələr və hər bir abituriyentin cavab kartının qrafik təsviri TQDK-nın internet saytında yerləşdiriləcək. Abituriyentlər imtahan nəticələri barədə məlumatı həmçinin mobil telefonla iş nömrələrini 7727 nömrəsinə göndərməklə də öyrənə biləcəklər.

## Naxçıvan şəhərində "rus dili və ədəbiyyatı" fənni üzrə VII ümumrespublika olimpiadasının zona turu keçirilib





*Mayın 16-da Naxçıvan şəhərindəki 3 nömrəli tam orta məktəbdə VII-VIII sinif şagirdləri arasında "rus dili və ədəbiyyatı" fənni üzrə ümumrespublika olimpiadasının Naxçıvan Muxtar Respublikası üzrə zona turu keçirilib. Açılış mərasimində Rusiya Federasiyasının Azərbaycandakı Səfirliyinin müşaviri Oleq Muraşev, "Rossotrudniçestvo" Agentliyinin Azərbaycandakı rəhbəri Valentin Denisov, Azərbaycanın Rusdilli Təhsil Müəssisələri Müəllimləri Assosiasiyasının sədri Lyubov Yakunina iştirak ediblər.*

Məktəbin direktoru Ülkər Möhsümova, Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin əməkdaşı Abdulla Əsgərov və Naxçıvan Şəhər Təhsil Şöbəsinin müdiri Hüseyn Məmmədyarov çıxış edərək muxtar respublikada təhsilə göstərilən dövlət qayğısından danışıblar, 3 nömrəli tam orta məktəbin təhsildə qazandıqları uğurlardan bəhs ediblər.

Rusiya Federasiyasının Azərbaycandakı Səfirliyinin müşaviri Oleq Muraşev Naxçıvanda olmasından məmnunluğunu bildirib, bu diyarın onda xoş təəssüratlar yaratdığını deyib. Rusiya və Azərbaycan dövlətləri arasındakı münasibətlərə toxunan Oleq Muraşev Azərbaycan məktəblərində rus dilinin tədris olunmasını iki ölkə arasında dostluq münasibətlərinin göstəricisi kimi dəyərləndirib, keçirilən olimpiadanın qarşılıqlı mədəni inkişafın nümunəsi olduğunu qeyd edib.

"Rossotrudniçestvo" Agentliyinin Azərbaycandakı rəhbəri Valentin Denisov, Azərbaycanın Rusdilli Təhsil Müəssisələri Müəllimləri Assosiasiyasının sədri Lyubov Yakunina qeyd ediblər ki, olimpiadanın əsas məqsədi görkəmli rus şairi Sergey Yeseninin 120 illik yubileyi ərəfəsində şagirdlərin biliklərini artırmaq və iki ölkə arasındakı ədəbi-mədəni əlaqələrin inkişafına dəstək olmaqdır.

Çıxış edənlər belə tədbirlərin Rusiya və Azərbaycan dövlətlərinin qarşılıqlı əlaqələrinin inkişafında böyük əhəmiyyət kəsb etdiyini diqqətə çatdırıb, olimpiada iştirakçılarına uğurlar arzulayıblar.

Tədbirin ədəbi-bədii hissəsində məktəbin şagirdlərinin ifasında Azərbaycan və rus dillərində şeirlər səsləndirilib, hər iki xalqın milli rəqsləri ifa olunub. Sonra olimpiadanın zona turuna start verilib.

Qeyd edək ki, "rus dili və ədəbiyyatı" fənni üzrə VII ümumrespublika olimpiadası Rusiya Federasiyasının Azərbaycandakı Səfirliyi, "Rossotrudniçestvo" Agentliyinin Azərbaycandakı Nümayəndəliyi, Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycanın Rusdilli Təhsil Müəssisələri Müəllimləri Assosiasiyasının birgə təşkilatçılığı ilə keçirilir. Olimpiadanın zona turunun nəticələri bir həftə sonra elan ediləcəkdir.

**✍ Səbuhi HƏSƏNOV**

## Rəssamlar Birliyində ustad dərsi



Ötən həftə Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyində Azərbaycan Fotoqraflar Birliyinin sədri Mirnaib Həsənoğlunun təqdimatında ustad dərsi keçilib. Dərsin əsas məqsədi bu sahəyə marağı olan gənclərin fotoqrafiya ilə daha peşəkar səviyyədə məşğul olmalarına şərait yaratmaq idi.

Gənc fotoqraflar Azərbaycanın müxtəlif bölgələrindən, eləcə də Naxçıvan Muxtar Respublikasının tarixi və mədəni abidələrindən, təbiət mənzərələrindən çəkilmiş ən maraqlı fotoşəkillər əsasında müzakirələr aparıb, tanınmış fotoqrafların müxtəlif müsabiqələrdə qalib seçilən fotoşəkilləri ilə tanış olublar. Həmçinin dərsdə gənclərə fotoqrafiya sənətinin peşəkar formada öyrədilməsi üsullarından da bəhs edilib.

Ustad dərsin sonunda gənclərin fotoşəkillərin çəkilməsi texnikasına aid sualları cavablandırılıb.

Qeyd edək ki, tədbir Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin aid təşkilatlarla birgə tədbirlər planına uyğun keçirilib.

**Xəbərlər şöbəsi**

# Laçının işğalından 23 il ötür



*Unutmayaq: tarixi qələbələr işğalla barışmayan millətlərin parlaq taleyidir*

Dağlar qoynunda yerləşən, laçınlar, igidlər məskəni kimi tanınan, füsunkar təbiəti hər kəsi heyran edən strateji əhəmiyyətə malik Laçın rayonu 1992-ci il may ayının 18-də Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilib. Həmin ilin o ağır günlərini xatırlamaq nə qədər çətin olsa da, bu, bizim yaşadığımız tarixdir. Tariximizi unutmaq isə həm də işğal altında olan laçın diyarlarımızı unutmaq deməkdir. Xatırlayaq. Xatırlayaq ki, unutmayaq. Unutmayaq ki, tarixi qələbələr həm də işğal faktı ilə barışmayan millətlərin parlaq taleyidir.

*Tarixən bizim olan Laçın...*

Yüzilliklərdir, ata-babalarımız bu torpaqları göz bəbəkləri kimi qoruyublar. Bir sıra tarixçilərin qənaəti budur ki, oradakı abidələr tarixi eramızdan əvvəl II-I minilliyə aid edilən Azıx (Xocavənd rayonu) və Tağlar (Cəbrayıl rayonu) mağaraları ilə müqayisə edilə bilər. XII əsrin sonu, XIII əsrin əvvəllərində Qarabağın dağlıq hissəsində alban Xaçın knyazlığı yarandığı üçün Dağlıq Qarabağın digər bölgələrində olduğu kimi, bu ərazilərdə də Xaçın adı ilə bağlı yerlər, toponimlər çoxdur: Xaçınyalı kəndi, Bozlu kənd ərazisində Xaçın yalı, Xaçın daşı və sair.

1828-ci il Türkmənçay müqaviləsinə əsasən, Cənubi Qafqaza ermənilərin kütləvi şəkildə köçürülməsinə başlansa da, o vaxt Laçın bölgəsində ermənilərin məskunlaşdırılması mümkün olmadı. Azərbaycanda xanlıqlar ləğv edildikdən sonra Laçın bölgəsi 1829-cu ildə yeni yaradılan Qarabağ əyalətinə, 1861-ci ildə isə Zəngəzur qəzasına qatıldı. 1905-1907 və 1914-1920-ci illərdə Laçının da daxil olduğu Zəngəzur bölgəsində erməni dəstələrinin törətdiyi qırğınlarda xeyli müsəlman həlak olsa da, bu, laçınlıların iradəsini qıra bilmədi. Bu, özünü Andranikin silahlı dəstələrinə qarşı mübarizədə daha aydın göstərdi. Bu məsələdən xəbər tutan Qarabağın general-qubernatoru Xosrov bəy Sultanovun qardaşı Sultan bəy öz dəstələri ilə Laçın-Zabux yolundakı bir dərədə Andranikin qoşununu mühasirəyə saldı. Bu döyüşdə Andranik, demək olar ki, bütün qüvvəsini itirdi və ancaq bir neçə nəfərlə qaçıb canını qurtardı. Bundan sonra o bir daha həmin bölgəyə yaxın düşə bilmədi.

Həmin döyüşlərdə Sultan bəy Sultanovun rəhbərliyi ilə Laçın silahlıları da igidliklə, mərdliklə vuruşurdu. Ancaq əməliyyatları başa çatdırmaq mümkün olmadı. Tezliklə bölgə qızıl ordu hissələri tərəfindən işğal olundu. Bolşeviklərin təzyiqi altında 1920-ci il noyabrın 30-da Azərbaycan K(b)P MK Siyasi və Təşkilat bürolarının birgə iclası Zəngəzur bölgəsinin 2 yerə bölündüyünü qəbul etdi və nəticədə, onun 3105 kvadratversti Laçın da daxil olmaqla, Azərbaycan SSR tərkibində qaldı, 3637 kvadratverstlik hissəsi isə Ermənistana verildi.

*Yüzilliklərboyu ata-babalarımız tərəfindən göz bəbəyi kimi qorunan Laçın erməni işğalında...*

İllər keçsə də, bu gün də hər kəsi bu sual düşündürür: yüzilliklərboyu ata-babalarımız tərəfindən göz bəbəyi kimi qorunan Laçın necə oldu ki, işğal edildi? Axı ən ağır illər hesab edilən 1905-ci və 1918-ci illərdə Laçın yenə də ermənilərə məğlub olmayıb. Bu torpağın mərd oğulları onun keşiyində həmişə inamla dayanıblar. Bəs onda 1992-ci ildə niyə Laçını qoruya bilmədik?

Məsələyə aydınlıq gətirmək üçün 1992-ci ilin siyasi mənzərəsinə diqqət yetirməliyik. Həmin il ölkədə rəsmən hakimiyyətsizlik, xaos, qarşıdurma, özbaşınalıq, aclıq və səfalət hökm sürürdü. Vəzifəpərəstlərin hakimiyyət davası, xəyanətkar əməlləri, təxribatlar və saymaqla bitməyən səbəblər...

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi, ***"Laçının işğal altına düşməsi təkcə laçınlıların deyil, bizim hamımızın böyük faciəsidir... Əgər ulu öndər o vaxt, Azərbaycan üçün həlledici anlarda hakimiyyətdə olsaydı, Laçın heç vaxt işğal altına düşməzdi".***

Azərbaycandakı hərc-mərclikdən məharətlə istifadə edən ermənilər Şuşadan sonra çox mühüm strateji əhəmiyyəti olan Laçını işğal planını həyata keçirdilər. Vətənimizin igid övladlarının bütün cəhdlərinə baxmayaraq, füsunkar Azərbaycan incisi düşmənin əlinə keçdi. Erməni barbarlar rayonun bir şəhər və qəsəbəsini, 125 kəndini, 1835 kvadratkilometrlik ərazisini vəhşiliklə dağıtdılar. Bu qəsbkarlıq nəticəsində rayon ərazisindəki 54 dünya və 200-dən çox yerli əhəmiyyətli tarixi, mədəniyyət və dini abidələrimiz erməni vandalizminə məruz qaldı. 13745 yaşayış evi, 48 sənaye, 63 kənd təsərrüfatı, 217 mədəniyyət, 101 təhsil, 142 səhiyyə, 462 ticarət, 96 məişət, 30 rabitə, 2 avtonəqliyyat müəssisəsi və digər obyektlər bütün əmlakı ilə birlikdə talan və məhv edildi.

72 min hektarlıq yaylaq sahəsi, 34 min hektar nadir və zəngin meşə zolağı olan Laçın rayonunda ictimai və şəxsi təsərrüfatlardakı 25 min baş iribuynuzlu heyvan və 200 min başdan artıq davar, minlərlə arı ailəsi, əhalinin bütün varidatı işğal zonasında qalaraq qarət edildi. Müxtəlifrəngli mərmər, kobalt, bazalt, civə, qızıl, dəmir, uran, qranit yataqları, mineral bulaqlar, yeraltı və yerüstü sərvətlərimiz bu gün də dünya ictimaiyyətinin gözü qarşısında talan edilir. Bütövlükdə, o dövrkü qiymətlərlə rayona dəymiş ziyanın miqdarı 7 milyard ABŞ dollarından çoxdur.

Bu itkilərimiz içərisində ən ağırı işğal zamanı rayon sakinlərindən 238 nəfərin ermənilər tərəfindən işgəncələrlə və insanlığa sığmayan üsullarla öldürülməsi, 66 nəfərin itkin düşməsi, 120 nəfərin əlil və şikəst olması, yüzlərlə uşağın bir valideynini, o cümlədən 31 uşağın isə hər iki valideynini itirməsidir.

İşğal nəticəsində 58 mindən çox rayon sakini respublikanın 59 rayon və şəhərində 800-dən çox yaşayış məntəqəsinə səpələndi. Ev-eşiklərini itirmiş məcburi köçkünlər çadır və vaqonlarda, yararsız binalarda ağır vəziyyətdə yaşamağa məcbur oldular.

Torpaqlarından didərgin düşmüş vətəndaşların güzəranının yaxşılaşdırılması yalnız ümummilli lider Heydər Əliyevin hakimiyyəti dövründə əsas problem kimi diqqət mərkəzində olmuşdur. Həmin kurs bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkə rəhbərinin laçınlılara göstərdiyi yüksək diqqət və qayğının nəticəsi olaraq, Taxtakörpü qəsəbəsində və məcburi köçkünlərimizin sıx məskunlaşdığı digər ərazilərdə genişmiqyaslı tikinti-quraşdırma, abadlıq işləri görülüb.

*Biz o torpaqlara zəfərlə qayıdacağıq...*

Tarixdə heç bir qəsbkar, işğalçı, zalım öz "qələbəsini" sonadək qoruyub saxlaya bilməyib. Bu baxımdan da işğalçı Ermənistanın heç bir şansı yoxdur. Əslində, onlar heç zaman Azərbaycanın hansısa ərazisini işğal etmək iqtidarında olmayıblar. Sadəcə, güclü himayədarlarının dəstəyi nəticəsində həmişə qonşu torpaqlarından faydalanıblar.

Amma işğalçıların "dövranı" artıq bitib. İndi zaman müstəqil, qüdrətli Azərbaycan Respublikasının xeyrinə işləyir. Bu gün azərbaycanlıların güclü dövləti, qətiyyətli lideri, yüksək döyüş qabiliyyətinə malik ordusu var. Buna görə də son dövrlər cəbhə xəttində baş verən hadisələrdən sonra Ermənistanda ciddi təşviş yaranıb. Azərbaycanda isə vəziyyət tamam başqadır, əhali qüdrətli ordumuzun düşmənin təxribatçı qüvvələrinə qarşı apardığı uğurlu hərbi əməliyyatları görür və insanlarda yüksək əhval-ruhiyyə yaranır. Bu gün gənclər, hətta yaşlı nəslin nümayəndələri də, keçmiş Qarabağ döyüşçüləri, veteranlar da ölkə başçısına, Ali Baş Komandana müraciət edərək onun əmrini gözlədiklərini inamla bildirirlər. Bu barədə danışan dövlət başçısı deyib: ***"Azərbaycan xalqının səbri artıq tükənir. Bizim imkanımız, bizim güclü ordumuz vardır. Cəmiyyətdə çox gözəl ab-hava, vətənpərvərlik ruhu vardır. Mən deyirəm, yüzlərlə gənc indi cəbhə bölgəsində əməliyyatlarda könüllü kimi gedib iştirak etmək istəyir. Ehtiyac yoxdur. Ordumuz vardır. Ordumuz öz vəzifə borcunu layiqincə yerinə yetirir. Amma bu, cəmiyyətin duyğularını, vəziyyətini göstərir. Bu gün Azərbaycan vətəndaşları fəxr edirlər ki, Azərbaycan dövlətində yaşayırlar. Bu dövlətin vətəndaşlarıdır. Çünki Azərbaycan müstəqil siyasət aparır. Bu siyasətin mərkəzində Azərbaycan xalqının maraqları dayanır. Xalqın maraqları hər şeydən üstündür. Biz bu siyasəti bütün istiqamətlər üzrə davam etdirəcəyik".***

*Azərbaycan cəmiyyətinin bu inamı, dövlət başçımızın güclü siyasi iradəsi, qüdrətli ordumuzun yüksək döyüş qabiliyyəti düşmən tapdağında olan bütün torpaqlarımızın, o cümlədən Laçının da işğaldan azad ediləcəyinə tam əminlik yaradır. Tezliklə biz o torpaqlara zəfərlə qayıdacağıq. Bizim üçrəngli, aylı-ulduzlu dövlət bayrağımızın Şuşada, Xankəndidə, Laçında dalğalanacağı gün uzaqda deyil.*

**Rauf ƏLİYEV**

*Ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş kikboksinq üzrə Naxçıvan Muxtar Respublika turnirinə yekun vurulub.*

# Muxtar respublika turniri başa çatıb



Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Şərq Döyüşü Sənəti Federasiyasının birgə təşkil etdiyi turnirdə 10 çəki dərəcəsində 200-ə yaxın idmançı iştirak edib.

Turnirin açılış mərasimində Gənclər və İdman Nazirliyinin Kütləvi bədən tərbiyəsi və idman şöbəsinin müdiri Taleh İbrahimov, Şərq Döyüşü Sənəti Federasiyasının sədr müavini Cavanşir Salayev çıxış edərək yarış iştirakçılarına uğurlar arzulayıblar.

Sonra Naxçıvan Dövlət Filarmoniyasının və Şərur Xalq Yallı Ansamblının bir-birindən maraqlı çıxışları olub.

İki gün davam edən yarışın final qarşılaşmaları gərginliyi ilə yadda qalıb. Kişilərin mübarizəsində Kənan Məmmədov (60 kq), Ruslan Musayev (63 kq), Samiq Seyidzadə (67 kq), İbrahim İbrahimli (75 kq), Hüseyn Xəlilov (81 kq) və Mirəli Seyidov (91 kq) öz çəki dərəcələrində bütün rəqiblərinə qalib gələrək turnirin baş mükafatını qazanıblar. Yeniyetmələrin mübarizəsində isə Əhməd Cəfərov (51 kq), Bəxtiyar Qəribov (54 kq), Mərdan Muradov (60 kq) və Mətin Zal (67 kq) qalib adını qazanıblar.

Sonda qalib idmançılar diplom, medal, kubok və hədiyyələrlə mükafatlandırılıblar.

# Velosiped yürüşü üzrə birincilik



*Ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş velosiped yürüşü üzrə Naxçıvan Muxtar Respublika birinciliyi keçirilib.*

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Hava və Ekstremal İdman Növləri Federasiyasının birgə təşkil etdiyi birincilikdə 40-dan çox idmançı mübarizə aparıb.

Yarışın açılış mərasimində çıxış edən Gənclər və İdman naziri Azad Cabbarov bildirib ki, muxtar respublikada idmanın inkişafına göstərilən diqqət və qayğı nəticəsində son illər idmançılarımız ölkədaxili və beynəlxalq turnirlərdə uğurla çıxış edirlər. Ölkəmizdə bu il ilk dəfə təşkil olunacaq Avropa Oyunları idmanımızın inkişafına öz töhfəsini verəcək.

Hava və Ekstremal İdman Növləri Federasiyasının sədri Hafiz Yaqubov çıxışında qeyd edib ki, federasiyanın yeni fəaliyyətə başlamasına baxmayaraq, artıq bir çox gənc bu növlərə maraq göstərməkdədir. Məqsədimiz bu idman növlərini muxtar respublikada kütləvi hala gətirmək və gəncləri idmana cəlb etməkdir. Hazırda muxtar respublikada hər bir yeniyetmə və gəncin idman sahəsində uğur qazanması üçün bütün şərait yaradılıb.

Komanda və fərdi hesabda mübarizə aparan idmançılar Uzunoba gölünün ətrafında yürüşü yekunlaşdırıblar. Komanda hesabında hamını qabaqlayan Naxçıvan Dövlət Universitetinin komandası qalib adını qazanıb. "Qapıcıq" idman klubunun velosipedçiləri ikinci, Kəngərli rayonunun komandası üçüncü olublar. Fərdi yarışlarda isə ilk üç pillədə Naxçıvan Dövlət Universitetinin tələbələri – Rəşad Əhmədov, Malik Hənifəyev və Xaliq Novruzov qərarlaşıblar.

Sonda qaliblərə diplom, kubok və hədiyyələr təqdim olunub.

# Məktəblilərin şahmat yarışı



Naxçıvan şəhərindəki Şahmat Mərkəzində ümumtəhsil məktəblərinin şagirdləri arasında şahmat üzrə birincilik keçirilib. Təhsil Nazirliyinin və Şahmat Federasiyasının birgə təşkil etdiyi birincilikdə 86 zəka sahibi qüvvəsini sınayıb. Yarışın yekunlarına əsasən, Naxçıvan şəhər 1 nömrəli tam orta məktəbin şagirdi Süleyman Məmmədov qalib adını qazanıb. 5 nömrəli tam orta məktəbin şagirdləri Rəvan Rəhimov və Kərim Rəhimov isə digər iki pillədə qərarlaşıblar.

Sonda qaliblərə diplomlar təqdim olunub.

**Ceyhun MƏMMƏDOV**

## Naxçıvan Dövlət Universiteti

*2014/2015-ci tədris ilinin yay məqbul-imtahan sessiyası ilə əlaqədar qiyabiçi tələbələrin nəzərinə çatdırır*

Universitetin qiyabi şöbəsində təhsil alan I, II, III, IV kurs tələbələrinin yay məqbul-imtahan sessiyası (əlavə ali təhsil də daxil olmaqla bütün ixtisaslarda) 1 iyun 2015-ci il tarixdən başlayır və 20 iş günü davam edir.

Buraxılış kurs tələbələrinin məqbul-imtahan sessiyası 1 iyun 2015-ci il tarixdən başlayır və 15 iş günü davam edir. Yekun dövlət attestasiyası isə 19 iyun 2015-ci il tarixdən başlayır və 5 iş günü davam edir.

**Qeyd:** ***Akademik borcları olan tələbələr növbəti sessiya başlananadək borclarını ödəməlidirlər.***

***REKTORLUQ***

***İtmişdir***

Babək rayonunun Hacıvar kəndində yaşayan Səfərova Gülsüm Məmməd qızının adına olan Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti tərəfindən 09.07.2014-cü il tarixdə verilmiş 926 inventar nömrəli texniki pasport və 0037066 seriya nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhərinin Bulqan kəndində yaşamış Əhmədov Əhməd Əli oğlunun adına olan 127 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Səbuhi Həsənov

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 4020. Sifariş № 395